**UOT 330.8**

# KİÇİK VƏ ORTA SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ VERGİ SAHƏSİNDƏ TƏNZİMLƏNMƏNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**İlqar Elman oğlu QASIMOV**

*AMEA İqtisadiyyat İnstitutu, elmi işçi*

*i.qasımov@gmail.com*

*Məqalədə kiçik və orta sahibkarlıq fəaliyyətində vergi sahəsində tənzimlənmənin əsas istiqamətlərinə baxılmışdır. Sahibkarlığın inkişaf sahələrində qəbul edilmiş normativ-hüquqi sənədlər, sahibkarlığa dövlət maliyyə mexanizminin daha da təkmilləşdirilməsi iş adamlarında özünəinam hissini artırmış, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, xüsusilə də regionlarda yeni sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına təkan vermişdir.*

***Açar sözlər:*** *vergi siyasəti, vergi sistemi, iqtisadi metod, vergi siyasəti prinsipləri, vergi yükü, sahibkarlıq.*

Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal olunması Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.

Ümumiyyətlə, sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlarla dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə şərait yaratmışdır. Dövlət-sahibkar münasibətləri inkişaf etdirilmiş, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılmış, onların tətbiqi nəticəsində müdaxilə halları azalmışdır. Sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində mütəmadi tədbirlər həyata keçirilməkdədir. Bununla yanaşı, sahibkarlığa dövlət maliyyə köməkliyi mexanizmi yaradılmış və bu mənbə kiçik və orta sahibkarların maliyyə vəsaitlərinə ödənilməsinin real mənbəyi kimi çıxış edir.

Sahibkarlığın inkişafı sahələrində qəbul edilmiş normativ-hüquqi sənədlər, sahibkarlığa dövlət maliyyə mexanizminin daha da təkmilləşdirilməsi iş adamlarında özünəinam hissini artırmış, sahibkarlıq fəaliyyətinin genişləndiril-

məsinə, xüsusilə də regionlarda yeni sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına təkan vermişdir.

Sahibkarlığın inkişafı davamlı inkişaf strategiyasının məqsədlərinin reallaşması baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən biri təşkil etməkdədir ki, bu siyasət iqtisadiyyatın bütün sahələrində, xüsusilə prioritet inkişaf sahələrində işgüzar fəaliyyət üçün normativ-hüquqi, təşkilati və maliyyə təminatı səviyyəsinin yüksəldilməsinə yönəlmişdir.

Son illər ölkəmizdə biznes mühitin əlverişliyinin daha da artırılması istiqamətində mütəmadi işlər həyata keçirilmişdir. Belə ki, bu istiqamətdə sahibkarların yerli ictimai strukturları, tənzimlənmə funksiyalarının həyata keçirən dövlət təşkilatları, həmçinin beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası ilə sıx əməkdaşlıq edilmişdir [1, S. 416].

İnkişaf etmiş ölkələrdə kiçik və orta biznesin səmərəli fəaliyyətinin təmin edildiyi şəraitdə istehsal olunan məhsul və xidmətlərin yarıdan çoxu, elmi texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin 80%-i, hər yeni açılan 3 iş yerindən 2-si həmin sahənin payına düşür. Eyni zamanda kiçik və orta biznes subyektləri əhalinin tələbatına daha həssas olduğundan, bazar konyukturunun dəyişikliklərinə çevik reaksiya verib, istehsal və istehlak sferalarındakı müvafiq boşluqları daha dolğun və səmərəli şəkildə doldura bilirlər. Bundan əlavə kiçik və orta sahibkarlıq cəmiyyətdə orta təbəqənin formalaşmasının əsas mənbəyi kimi zəruri sabitliyi təmin edərək, ölkədə həyata keçirilən demokratik yönlü, mütərəqqi iqtisadi, hüquqi və siyasi islahatların dəstəklənməsinin sosial bazasını genişləndirir. Məlumdur ki, səmərəli fəaliyyət göstərən güclü sahibkarlıq institutunun formalaşması və inkişafı uzunmüddətli proses olaraq, dövlət tərəfindən müəyyən edilən siyasi, hüquqi və iqtisadi mühitin əlverişli olmasından, həm də dövlətin biznes və cəmiyyətlə əməkdaşlığının səmərəli olmasından asılıdır.

Ölkəmiz bazar iqtisadiyyatına keçid dövründən başlayaraq sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirmişdir. Davamlı tədbirlərdən həlledicisi bu sahədə qanunvericilik bazasının for malaşdırılması və zamanın tələbinə uyğun olaraq təkmilləşdirilməsi olmuşdur. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət yardımının zəruriliyi kiçik və orta sahibkarlığın cəmiyyətin sosial-iqtisadi problemlərinin həllinin vacib alətlərindən birinə çevrilməsindən irəli gəlmişdir. 1999-cu ildə qəbul edilmiş “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununda kiçik sahibkarlıq subyektlərinə dövlət köməyinin istiqamətləri müəyyən edilmişdir:

- kiçik sahibkarlığın dəstəklənməsinin və inkişafının infrastrukturunun formalaşdırılması;
- kiçik sahibkarlığa kömək proqramlarının hazırlanması və həmin proqramların həyata keçirilməsinin təşkili;

- kiçik sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarının əldə etmələri üçün güzəştli şəraitin yaradılması;
- kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik sahibkarlıq subyektlərinə kömək göstərilməsi;
- kiçik sahibkarlıq subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəfmüqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsi;
- kiçik sahibkarlıq subyektləri üçün dövlət qeydiyyatının (*uçotunun*), statistik və mühasibat hesabatlarının təqdim edilməsinin, onların istehsal etdikləri məhsulun (*işin, xidmətin*) sertifikatlaşdırılmasının sadələşdirilmiş sisteminin tətbiqi;
- kiçik sahibkarlığın inkişafı üzrə tədqiqatların təşkili

Son dövrlər Azərbaycan Respublikasında bazar iqtisadiyyatının inkişafı, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində aparılan effektiv iqtisadi siyasət çərçivəsində çevik vergi siyasəti həyata keçirilməkdədir. Davamlı olaraq respublikamızda aparılan vergi siyasəti vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergi tutma bazasının genişləndirilməsinə, milli iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdisahibkarlar arasında, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, kiçik və orta sahibkarlıq, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına və son nəticədə mövcud iqtisadi potensialın artırılmasına və vətəndaşların maddi rifahının yüksəldilməsinə yönəldilmişdir. Azərbaycan Respublikasında vergi siyasəti əsasən aşağıdakı prinsiplər nəzərə alınmaqla həyata keçirilir: vergi sisteminin normativ-hüquqi bazasının yaradılması, vergi mədəniyyətinin formalaşdırılması, vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və onların hüquqlarının maksimum qorunması; vergi yükünün optimal səviyyədə saxlanılması; vergi sisteminin idarəetmə orqanlarının digər dövlət orqanları ilə əlaqələndirilməsi; sahibkarlıq və investisiya fəallığını stimullaşdıran, sadə və vergi ödəyici tərəfindən başa düşülən vergi sisteminin yaradılması və s.

Son illər vergi islahatları aşağıdakılar nəzərə alınmaqla reallaşdırılmaqdadır: fiskal səmərəlilik, dövlətin vergi ödəyicilərinin, vergilərin yığılması ilə bağlı xərclərin vergi daxilolmalarından dəfələrlə az olması; vergilərin ödəmədən yayınma hallarının qarşısının alınması; vergilərin tədqiqi və yığılması qaydalarının alınması üçün əlverişli normativ hüquqi bazanın yaradılması və tətbiqi; vergi dərəcələrinin və gəlirlərinin bölüşdürülməsi normativlərinin əlverişliyinin təmin olunması; vergi ödəyicilərinə, sahələrə və fəaliyyət növlərinə vergitutma məqsədilə müxtəlif yanaşmaların tətbiqi. Milli vergi sistemində son illər əldə olunmuş nailiyyətlərdən biri də onun beynəlxalq vergi sisteminə inteqrasiya etməsi nəticəsində vergi sahəsində ölkələr qrupuna daxil olmasıdır.

Bunlar ilk növbədə həyata keçirilən vergi islahatları və bu islahatlardan əldə olunan nailiyyətlərlə bağlıdır [2, s. 17-34]

Son illər ölkədə kiçik və orta sahibkarlığın dəstəklənməsinin təşkilati-iqtisadi modellərinin yaradılması, sahibkarlıq fəaliyyətinin hüquqi təminatının yaxşılaşdırılmasına dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi istiqamətində də əhəmiyyətli işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli Fərman ilə Xüsusi İqtisadi Zonalarla bağlı təkliflərin hazırlanmsı İqtisadi İnkişaf Nazirliyinə tapşırılmışdır.

Məlumdur ki davamlı inkişafın təmin edilməsi kiçik və orta sahibkarlığın inkişafına yeni tələblər irəli sürür. Bu tələblər biznes mühitin əlverişliliyinin artırılması yolu ilə özəl sektorun inkişafı sahəsində müvcud potensialın tam reallaşdırılmasına nail olmağa yönəlmişdir. Bu məqsədin reallaşdırılması növbəti illərdə sahibkarlığın inkişafı sahəsində dövlət siyasəti və onun reallaşması tədbirlərini bir sistem halında əhatə edən yeni Dövlət Proqramının qəbulunu zəruri etmişdir.

Qeyd edilən istiqamətlərdə sahibkarlığın davamlı inkişafının təmin etmək məqsədilə İqtisadi İnkişaf Nazirliyi tərəfindən "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı Dövlət Proqramı"nın layihəsi hazırlanmışdır. Proqramın məqsədi Azərbaycan Respublkasında sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyi tədbirlərinin artırılması, bu sahədə dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, insan potensialının gücləndirilməsi və bu kimi digər istiqamətlərdə məqsədyönlü tədbirlər həyata keçirilməklə sahibkarlığın davamlı inkişafına nail olmaqdır.

Proqram üzrə həyata keçirilməsi nəzərdə tutulan əsas istiqamətlər aşağıdakılardır:

- Sahibkarlığın dövlət tənzimlənməsi (hüquqi-normativ, institusional və iqtisadi) mexanizmlərinin təkmilləşdirilməsi;
- Sahibkarlığın infranstruktur təminatı sisteminin təkmilləşdirilməsi və dəstəklənməsinin mütərəqqi təşkilati modellərinin tətbiqi;
- Sahibkarlığın informasiya, məsləhət təminatı və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi;
- Sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılması
- Dövlət-sahibkar münasibətlərinin, korporativ idarəetmənin inkişafı və sahibkarların hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi;

Sahibkarlığın istehsalı, investisiya, innovasiya və xarici iqtisadi fəaliyyətinin təşviqinin gücləndirilməsi.

Son illər sahibkarlığın, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində işlər davam etdirilmişdir. Son iki ildə dövlətin və beynəlxalq təşkilatların dəstəyi ilə 5 şəhərdə (Gəncə, Şəki, Lənkəran, Qazax və Mingəçevir) regional biznes mərkəzlər yaradılmışdır. Hazırda bu

qurumlar tərəfindən göstərilən biznes xidmətlərin təşkili səviyyəsinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir.

Kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən kiçik sahibkarlığın inkişafi üçün kiçik sahibkarlıq subyektlərinə informasiya, hüquqi və iqtisadi məsləhət xidmətləri göstərmək və sahibkarların dövlət təşkilatları və xarici tərəfdaşlara səmərəli əməkdaşlıq əlaqələri yaratmalarına yardımçı olmaq məqsədilə istənilən mülkiyyət forması əsasında hər hansı təşkilati-hüquqi formada müəssisə və təşkilatların yaradılması, yeni fəaliyyətə başlayan kiçik sahibkarlıq subyektlərinə fəaliyyətin təşkilinə və maliyyə müstəqilliyi əldə etmələrinə kömək məqsədilə mülkiyyət formasından asılı olmayaraq onları müəyyən şərtlər əsasında və müəyyən müddətə lazımi avadanlıqla təchiz edilmiş ofis və ya iş yerləri ilə təmin etmək üçün, habelə kiçik sahibkarlıq subyektlərinə gələcəkdə öz fəaliyyətlərini inkişaf etdirməyə imkan verə biləcək yeni texnologiyaların və digər yeniliklərin hazırlanmasına şərait yaratmaq məqsədilə istənilən təskilati-hüquqi formada qurumlar yaradılması nəzərdə tutulub.

Vergi siyasəti dedikdə, maliyyə resurslarının yenidən bölüşdürülməsi hesabına dövlətin və cəmiyyətin ayrı-ayrı sosial qruplarının maliyyə tələbatlarının təmin olunmasının və həmçinin ölkə iqtisadiyyatının normal inkişaf etdirilməsi məqsədilə ölkənin vergi sisteminin formalaşdırılması üzrə dövlətin həyata keçirdiyi iqtisadi, maliyyə və hüquqi tədbirlərin məcmusu başa düşülür. Dövlət vergi siyasətini həyata keçirərkən vergilərə məxsus funksiyalara söykənir və aktiv vergi siyasətinin həyata keçirilməsi üçün bu funksiyalardan istifadə edir. Ölkənin iqtisadi vəziyyətindən və iqtisadi inkişafın müəyyən mərhələsində dövlətin prioritet hesab etdiyi məqsədlərdən aslı olaraq vergi siyasətinin həyata keçirilməsi üçün müxtəlif metodlardan istifadə olunur. Vergi siyasəti dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla onun həyata keçirilməsinin forma və metodlarından əhəmiyyətli dərəcədə asılıdır [3 s.298].

Vergi siyasətinin iqtisadi inkişafa təsirini daha da artırmaq üçün onu elmi cəhətdən əsaslandırmaq tələb olunur və ancaq elmi yanaşma vergi siyasətinin nisbi müstəqilliyini möhkəmlədə bilər. Təsərrüfat təcrübəsi sübut edir ki, vergi siyasətinin iqtisadiyyatdan ayrılması ciddi çətinliklərə səbəb olur. Vergi siyasətinin təşkilinə elmi yanaşma, onun bütün faktorlarının öyrənilməsi həmin siyasətin qanunauyğunluğunu təmin edir. Bu qanunauyğunluqlara məhəl qoymamaq iqtisadiyyatda böyük itkilərə səbəb olur.

Maliyyə ehtiyatlarının effektli istifadəsinin uçotunu aparmamaq vəsaitinin dağılmasına səbəb ola bilər. Məsələn, son onilliklərdə külli miqdarda vəsait kənd təsərrüfatına və tikintiyə sərf olunurdu. Amma kənd təsərrüfatı malları istehsalı ləng gedir, kapital qoyuluşların effektliyi isə aşağı düşürdü. Belə faktlar, vergi siyasətinin formalaşması zamanı inkar edilirdi, bu da nəticədə bütün ölkənin maliyyə vəziyyətini pisləşdirmişdi.

Vergi siyasətinin formalaşması mütləq konkret tarixi şərait, o cümlədən sosial-iqtisadi inkişafın hər mərhələsini, daxili və xarici şəraitin xüsusiyyətlərini, dövlətin real iqtisadi və maliyyə imkanlarını nəzərə almalıdır. Nəzərdə tutulmuş xərclərin və maliyyə ehtiyatlarının həcminin bir-birindən asılı olması sadəcə olaraq maliyyə ehtiyatlığının, normallığın sübutu olmalı və təsərrüfatın bütün mərhələlərində eyni dərəcədə saxlanılmalıdır. Əks halda dövlət büdcəsinin kəsiri və dövlət borcları artar, inflyasiya baş verə bilər.

Vergi siyasətinin formalaşdırılması üçün keçmişin təcrübəsini öyrənmək, dünya təcrübəsi ilə tanış olmaq və araşdırmaq çox vacibdir. Qəbul olunmuş praktikaya görə Azərbaycan Respublikasının Vergilər Nazirliyi vergi siyasətinin əsaslarını hazırlayaraq onun bir neçə variantını təqdim edir. Təqdim olunmuş təkliflər ekspertlər tərəfindən qiymətləndirilir və ən əlverişli variant hökumətin müzakirəsinə verilir. Hesablamaların çoxvariantlığı, çoxlu amillərin nəzərə alınması, vergi tədbirlərinin ölkədəki konkret vəziyyətə bağlanması, nəticələrin proqnozlaşdırılması əlbəttə ki, riyazi modelləşdirilmənin, elektron hesablama texnikasının geniş istifadəsini tələb edir. Aydındır ki, burada iqtisadi və sosial sahələrdə olan vəziyyət haqqında real informasiyanın rolu böyükdür və vergi siyasəti cəmiyyətin həyat səviyyəsinin yaxşılaşmasına şərait yaratmalı, sahibkarlıq fəaliyyətinin inkişafına kömək etməlidir.

Elmi cəhətdən əsaslanmış vergi siyasəti onu düzgün həyata keçirdikdə yüksək nəticələr verir. Maliyyə ehtiyatları artdıqca sosial-sfera sahələrinə də ayırmalar artır, xalq istehlakı malları istehsalı çoxalır.

Dövlət vergi siyasəti istehsaledici qüvvələrin inkişafına və onun ölkədə səmərəli yerləşdirilməsinə kömək edir. Dövlətin vergi siyasəti başqa ölkələrlə xarici-iqtisadi əlaqələrin möhkəmkənməsinə, birgə tədbirlərin keçirilməsinə şərait yaradır, çünki elmi-texniki tərəqqinin inkişafı bəzi tədbirlərin təklikdə həyata keçirməyə imkan vermir, bu tək dövlətin işi deyil.

Vergi siyasətini həyata keçirmək üçün maliyyə mexanizmindən istifadə olunur. Bu mexanizm maliyyə münasibətlərinin, üsulların cəmindən ibarətdir və həmin üsullar cəmiyyət tərəfindən müsbət iqtisadi və sosial inkişafına şərait yaratmaq üçün istifadə olunur. Maliyyə mexanizminə ayrı-ayrı forma və üsullar daxildir və onun strukturu çox mürəkkəbdir. Maliyyə qarşılıqlı əlaqələrin çoxluğu mexanizminin forma və üsullarını qabaqcadan müəyyən edir. Dövlət, onun icraedici və qanunverici orqanlarının iqtisadi qanunlarını, maliyyə vəsaitinin inkişafını, qarşıda duran məsələləri öyrənərkən milli gəlirin, köçürmələrin miqdarını, dövlət vəsaitinin xərclənməsini təyin edir. Maliyyə vəsaitindən düzgün istifadə edilməsi üçün vacib amillərdən biri planlaşdırma və proqnozlaşdırmanın, maliyyə münasibətlərinin (vergilər, xərclər) düzgün rəsmiləşdirilməsidir. Vergi siyasətinin yerinə yetirilməsində onun hüquqi bazasının yaradılması müstəsna rol oynayır. Dövlət maliyyə münasibətlərinin qaydalarını müəyyən edərək onları qanunlar, normativ aktlar şəklində rəsmiləşdirir. Ayrı-ayrı region-

lar bu sənədlər əsasında özlərinə uyğun olaraq sənədlər və təlimatlar qəbul edirlər. Hüquqi qanunların tətbiq edilməsi ictimaiyyətin maraqlarını müdafiə edir və hüquqi normalara riayət etmək maliyyə intizamını möhkəmlətmək deməkdir

Kiçik sahibkarlıq subyektlərinin bu qərarla müəyyən edilən illik dövriyyə meyarı ilə Vergi Məcəlləsində sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ üçün müəyyən edilmiş meyar arasında ciddi fərqlərin mövcudluğu kiçik sahibkarlıq fəaliyyətinin vergi tənzimlənməsi ilə dövlətin digər tənzimləmə alətləri arasında əlaqənin zəif olması barədə fikir söyləməyə əsas verir. Kiçik və orta sahibkarlığın dövlət tənzimləməsinin sistemliliyinin təmin olunması üçün vergi tənzimlənməsi ilə digər tənzimləmə alətlərinin uzlaşdırılması zəruridir

Ümumiyyətlə, kiçik və orta sahibkarlığın regional strukturunun optimallaşdırılması üçün regionlarda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinə dövlət dəstəyinin sistemliliyi daha sanballı nəticələrin əldə edilməsinə imkan verə bilər.

Statistik təhlillər göstərir ki, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlərin həyata keçirilməsi nəticəsində büdcə gəlirlərində vergi daxilolmalarının xüsusi payı aşağı düşmüşdür. 2003-cü illə müqayisədə 2016-cı ildə vergi daxilolmaların büdcə daxilolmalarındakı xüsusi payı 32,53 faiz azalaraq 34,87 faiz təşkil etmişdir. Bundan başqa dövlət büdcəsi üzrə gəlirlərin həcmi 2012-ci ildə 17281,5 mln. manat olmuşdursa, 2013-cü ildə bu göstərici artaraq 19496,3 mln. manat təşkil etmişdir. 2012-ci il ilə müqayisədə 2013-cü ildə dövlət büdcəsi üzrə gəlirlərin strukturunda fiziki şəxslərin gəlir vergisi 19496,3 mln. manat, hüquqi şəxslərin mənfəət (gəlir) vergisi 2374, 8 mln. manat, torpaq vergisi 33,1 mln. manat əmlak vergisi 125,1 mln. manat, əlavə dəyər vergisi 2710,0 mln. manat, aksiz vergisi, xarici iqtisadi fəaliyyətlə bağlı vergilər 675,2 digər vergilər 161,5 mln. manat, sair daxilolmalar 11842,1 mln. manat təşkil etmişdir [4].

2016-cı ilin yekununa görə tədiyyələr üzrə vergi daxilolmalarında ən çox artım mənfəət vergisi və əlavə dəyər vergisi üzrə müşayiət olunmuşdur. Son il ərzində investisiyaları təşviq etmək, müəssisələrin istifadəsində qalan maliyyə vasitələrini artırmaq məqsədilə mənfəət vergisinin dərəcəsi də aşağı salınmışdır.

Aparılmış təhlilin nəticəsi onu göstərir ki, vergi ödəyicilərinin vergi orqanları ilə əlaqələrinin tam elektronlaşdırılması işlərinin davam etdirilməsi prosesi vergi sisteminin daha da təkmilləşdirilməsinə və inkişafına səbəb ola bilər. Nəticədə davamlı olaraq bu sahədə aparılan işlər dövlət büdcəsinin vergi daxilolmaları hesabına artmasına gətirib çıxaracaqdır. Məhz bu və ya digər tədbirlər nəticəsində vergi sistemində elektron xidmətlərin təkmilləşdirilməsi əsasında vergidən yayınma hallarının sayını azaltmaq mümkündür. Bundan başqa vergi ödənişləri, nəzarət və s. müxtəlif xidmətlərin müasir elektron texnologiyalardan istifadə olunmaqla reallaşdırılması, vergi ödəyicilərinə təqdim olunan xidmətlərin səviyyəsinin artmasına, inzibatçılıq xərclərinin ciddi şəkildə azalmasına, inzibati idarəetmənin keyfiyyətcə yüksəlməsinə səbəb olacaqdır.

Nəticədə vergilər sahəsində aparılan məqsədyönlü islahatlar Azərbaycan Respublikasının beynəlxalq təşkilatların hesabatlarında mövqeyinin daha da yüksəlməsinə səbəb olacaqdır.

Azərbaycan Respublikasında kiçik və orta sahibkarıq fəaliyyətinin genişləndirilməsi məqsədilə vergi siyasətinin daha da təkmilləşdirilməsi üçün vergi dərəcələrinin aşağı salınması, vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazası genişləndirilməli, iqtisadi sahələr üzrə investisiya qoyuluşları təşviqləndirilməli, hüquqi şəxsləri fərdi sahibkarlar arasında, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında, vergi yükünün bərabərləşdirilməsinə, qeyri-neft sektoru üzrə kiçik və orta sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə daha çox diqqət ayrılması zəruridir

Ümumiyyətlə, aparılmış təhlilin nəticəsi onu göstərir ki, vergi ödəyicilərinin vergi orqanları ilə əlaqələrinin tam elektronlaşdırılması işlərinin davam etdirilməsi prosesi vergi sisteminin daha da təkmilləşdirilməsinə və inkişafına səbəb ola bilər. Nəticədə, davamlı olaraq bu sahədə aparılan işlər dövlət büdcəsinin vergi daxilolmaları hesabına artmasına gətirib çıxaracaqdır. Məhz bu və ya digər tədbirlər nəticəsində vergi sistemində elektron xidmətlərin təkmilləşdirilməsi əsasında vergidən yayınma hallarının sayını azaltmaq mümkündür. Bundan başqa vergi ödənişləri, nəzarət və s. müxtəlif xidmətlərin müasir elektron texnologiyalardan istifadə olunmaqla reallaşdırılması, vergi ödəyicilərinə təqdim olunan xidmətlərin səviyyəsinin artmasına, inzibatçılıq xərclərinin ciddi şəkildə azalmasına, inzibati idarəetmənin keyfiyyətcə yüksəlməsinə səbəb olacaqdır. Nəticədə vergilər sahəsində aparılan məqsədyönlü islahatlar Azərbaycan Respublikasının beynəlxalq təşkilatların hesabatlarında mövqeyinin daha da yüksəlməsinə səbəb olacaqdır.

## Ədəbiyyat:

1. Məmmədov F.Ə. və b. Vergilər və vergitutma (Dərslik). Bakı: 2013, Ozan, 416 s.
2. Kəlbiyev Y.A. Vergi yükünün hesablanmasının metodoloji aspektləri "Azərbaycanın vergi xəbərləri", №9 (85), 2012, s.17-34.
3. Musayev A.F. Vergi siyasətinin iqtisadi problemləri. Baki: Elm, 2013, 298 s.
4. www.azstat.gov.az - AR DSK saytı.

**Ильгар Эльман оглу Касимов**

## Основные направления регулирования налогового регулирования в сфере малых и средних предпринимательство

### Резюме

В статье рассмотрена основные направления регулирования налогового регулирования в области деятельности малых и средних предпринимательство. Последные годы правовые документы были приняты в области развития бизнеса, предпринимательства и дальнейшего совершенствования механизма финансирования. Расширение предпринимательской деятельности, особенно в регионах, стимулировало создание новых хозяйствующих субъектов.

**Ключевые слова:** налоговая политика, налогова ясистема, экономический метод, принципы налоговой политики, налоговое бремя, предпринимательство.

**Ilqar Elman Gasimov**

## The main directions of regulation of taxes in the activity of small and medium enterprises

### Summary

The article main directions of regulation of taxes in the activity of small and medium enterprises are considered**.** Legal documents have been adopted in the areas of business development. Last years entrepreneurship and its activity of the financial mechanism increased. Expanding business activities, especially in the regions, also stimulated the establishment of new business entities.

**Keywords:** tax policy, tax system, economic method, tax policy principles, tax load, entrepreneur.